Böyük Britaniyanın London şəhərində elm və təhsil naziri Emin Əmrullayevin "Quacquarelli Symonds" (QS) qlobal reytinq agentliyinin təsisçisi və prezidenti Nuntsio Kvakvarellinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü keçirilib.

Görüş zamanı Azərbaycan ali təhsil müəssisələrinin QS reytinqlərində cari göstəriciləri və perspektivləri müzakirə olunub. Eyni zamanda növbəti aylarda ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi imkanları barədə fikir mübadiləsi aparılıb.